Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**

# Rəqəmsal biliklərin təhsildə aşılanması strateji zərurətdir...

**Məlum olduğu kimi, Prezident İlham Əliyev "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə orta məktəblərdə şagirdlərə ilkin biliklərin aşılanması üçün tədris proqramına müəyyən dəyişikliklər edilməli olduğunu vurğulayıb. Dövlət başçısı son vaxtlar bu istiqamətdə müəyyən işlərin görüldüyünü də diqqətə çatdırıb:**



"Biz öz təhsil sistemimizdə bu sahəyə daha böyük diqqət göstərməliyik. Həm Azərbaycanda fəaliyyət göstərən ali məktəblərdə, eyni zamanda dövlət xətti ilə xaricə göndərilən tələbələr bu ixtisas üzrə peşəkarlığı artırmalıdırlar. Ona görə nəzərə alsaq ki, bu, uzunmüddətli proses olacaq və bu proses ancaq və ancaq genişlənəcək, gələcəkdə bu sahədə kadrlara böyük ehtiyac olacaq. Təbii ki, orta məktəblərdə şagirdlərə ilkin biliklərin aşılanması üçün tədris proqramına da müəyyən dəyişikliklər edilməlidir".

**İqtisadiyyat getdikcə daha çox rəqəmsal bacarıqlara əsaslanır**

Faktdır ki, müasir dövrdə rəqəmsallaşma cəmiyyətin bütün sahələrinə sirayət edib və təhsil sistemi də bu prosesdən kənarda qalmır. Azərbaycan üçün rəqəmsal biliklərin təhsildə aşılanması artıq seçim deyil, strateji zərurətdir. Qlobal əmək bazarında rəqabət qabiliyyətli insan kapitalının formalaşdırılması, innovasiya və texnologiya əsaslı iqtisadiyyatın qurulması birbaşa olaraq məktəblərdə və ali təhsil müəssisələrində rəqəmsal bacarıqların inkişaf səviyyəsindən asılıdır.

Son illərdə Azərbaycan hökuməti təhsil sahəsində rəqəmsallaşma istiqamətində mühüm addımlar atıb. Xüsusilə, Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilən müxtəlif proqramlar məktəblərin texniki bazasının gücləndirilməsinə, elektron resursların yaradılmasına və müəllimlərin rəqəmsal bacarıqlarının artırılmasına yönəlib. Elektron jurnal və gündəlik sistemləri, onlayn təhsil platformaları və məsafədən təhsil imkanları bu istiqamətdə atılmış addımların bir hissəsidir. Rəqəmsal biliklərin aşılanmasının ən mühüm tərəfi şagirdlərin analitik düşüncə və problem həll etmə bacarıqlarının inkişafıdır. İbtidai təhsil səviyyəsi şagird şəxsiyyətinin formalaşmasında əsas mərhələ olduğundan bu səviyyədə fəaliyyət göstərəcək müəllimlərin rəqəmsal bacarıqlara yüksək səviyyədə yiyələnməsi xüsusi əhəmiyyət kəsb edir. Gələcək müəllimlər rəqəmsal mühitdə təlimi layihələndirməyi, süni zəka alətlərindən səmərəli istifadə etməyi və şagirdlərdə təhlükəsiz rəqəmsal davranış mədəniyyətini formalaşdırmağı bacarmalıdırlar. Proqramlaşdırma, alqoritmik təfəkkür və informasiya texnologiyalarının əsaslarının erkən yaşlardan öyrədilməsi şagirdlərdə məntiqi düşüncəni gücləndirir. Bu isə gələcəkdə mühəndislik, süni intellekt, kibertəhlükəsizlik və digər yüksək texnologiya sahələrində kadr potensialının formalaşmasına zəmin yaradır. Təhsil eksperti Elçin Əfəndi də bildirir ki, dövlət başçısının qeyd etdiyi dəyişikliklər tədris proqramlarında, xüsusilə tam orta təhsil müəssisələrində süni zəka ilə bağlı mövzulara yer verilməsini nəzərdə tutur: "Eyni zamanda ibtidai təhsil pilləsində həm informatika, həm də həyat bilgisi dərsliklərində rəqəmsallaşdırma, süni zəka və süni zəka alətləri ilə bağlı məlumatlar daxil edilə bilər. Artıq informasiya texnologiyaları və süni zəka bütün sahələrə nüfuz edir və yeni nəsil bu istiqamətdə daha dərindən biliklərə sahib olmalıdır". Digər vacib məqam əmək bazarının tələbləri ilə bağlıdır. Qlobal iqtisadiyyat getdikcə daha çox rəqəmsal bacarıqlara əsaslanır. İstər dövlət sektorunda, istərsə də özəl sektorda məlumatların idarə olunması, rəqəmsal platformalardan istifadə və onlayn kommunikasiya əsas kompetensiyalara çevrilib. Azərbaycan qeyri-neft sektorunun inkişafını prioritet elan etdiyi bir şəraitdə İT, startap və innovasiya ekosisteminin gücləndirilməsi üçün təhsil sistemində rəqəmsal savadlılıq əsas fundament rolunu oynayır. Pandemiya dövrü rəqəmsal təhsilin əhəmiyyətini xüsusilə aydın şəkildə göstərdi. Onlayn dərslərə keçid zamanı texnoloji imkanlara malik məktəblər və müəllimlər daha çevik adaptasiya olundular. Bu təcrübə göstərdi ki, rəqəmsal bacarıqların zəif olması təhsildə fasilələr və keyfiyyət problemləri yarada bilər. Deməli, gələcəkdə oxşar fövqəladə hallara hazır olmaq üçün rəqəmsal infrastruktur və bacarıqlar sistemli şəkildə inkişaf etdirilməlidir. Rəqəmsal biliklərin aşılanması eyni zamanda sosial bərabərliyin təmin olunmasına da töhfə verir. Regionlarda yaşayan şagirdlərin keyfiyyətli təhsil resurslarına çıxışı məhdud ola bilər. Lakin internet və rəqəmsal platformalar vasitəsilə onlar paytaxt və ya xarici ölkələrin təhsil materiallarına çıxış əldə edə bilirlər. Bu isə təhsil imkanlarının daha ədalətli bölüşdürülməsinə şərait yaradır.

**Rəqəmsal savadlı və innovativ düşüncəyə malik nəsil…**

Bununla yanaşı, rəqəmsal savadlılıq yalnız texniki bacarıqlarla məhdudlaşmamalıdır. Şagirdlərə informasiya təhlükəsizliyi, kibertəhlükəsizlik, şəxsi məlumatların qorunması və rəqəmsal etik davranış qaydaları da öyrədilməlidir. Sosial şəbəkələrin geniş yayılması fonunda dezinformasiya ilə mübarizə aparmaq üçün media savadlılığı da rəqəmsal təhsilin ayrılmaz hissəsinə çevrilməlidir.

Ali təhsil müəssisələrində isə rəqəmsal transformasiya elmi-tədqiqat fəaliyyətinin keyfiyyətini artırır. Bu arada onu da qeyd edək ki, ölkənin ali təhsil müəssisələrində rəqəmsal bacarıqlar üzrə beynəlxalq səviyyəli intensiv təhsil proqramı olan "IT SkillSprint"in açılış mərasimi keçirilib. Layihə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və "Ironhack" tədris şirkətinin tərəfdaşlığı ilə həyata keçirilir. Proqrama müxtəlif ali təhsil müəssisələrinin 3-cü kursunun II yarımilində təhsil alan, universitetə 400 və daha yüksək balla qəbul olunmuş 123 tələbə seçilib. İştirakçıların seçim prosesi qeydiyyat, baza biliklərini qiymətləndirən test imtahanı və müsahibə mərhələlərindən ibarət olub.

Proqram data analitikası və süni intellekt, kibertəhlükəsizlik, veb proqramlaşdırma və DevOps istiqamətlərini əhatə edir. O da mühümdür ki, elektron kitabxanalar, beynəlxalq elmi bazalara çıxış və onlayn əməkdaşlıq platformaları Azərbaycan universitetlərinin qlobal akademik məkana inteqrasiyasını sürətləndirir. Bu isə ölkənin elmi potensialının güclənməsinə və beynəlxalq reytinqlərdə mövqeyinin yaxşılaşmasına müsbət təsir göstərir. Eyni zamanda, dövlət və özəl sektor arasında əməkdaşlıq rəqəmsal təhsilin inkişafında mühüm rol oynaya bilər. Texnologiya şirkətlərinin məktəblərlə birgə layihələr həyata keçirməsi, startap inkubasiya proqramlarının təşkili və tələbələr üçün praktiki təcrübə imkanlarının yaradılması innovativ düşüncənin formalaşmasına xidmət edir. Ümumiyyətlə, Azərbaycan təhsilində rəqəmsal biliklərin aşılanması ölkənin gələcək inkişaf strategiyasının əsas sütunlarından biridir. Bu proses yalnız texniki avadanlıqların alınması ilə məhdudlaşmamalı, həm də kurikulumların yenilənməsi, müəllim hazırlığı və rəqəmsal mədəniyyətin formalaşdırılması ilə müşayiət olunmalıdır. Rəqəmsal savadlı və innovativ düşüncəyə malik nəsil yetişdirmək Azərbaycanın qlobal rəqabət qabiliyyətini artıracaq və ölkənin davamlı sosial-iqtisadi inkişafına mühüm töhfə verəcək. O da faktdır ki, qlobal rəqəmsal transformasiya təhsil sisteminin məzmun və strukturunda ciddi dəyişikliklərə səbəb olub.

***Samirə SƏFƏROVA***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunur.***